**Təsdiq edilmişdir:**

Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

_______________

15.07.2024-cü il

# Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Biznesin yerləşdiyi yer (tikintiyə icazələrin verilməsi)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi

| Sıra №-si | Alt komponentlərin tələbləri | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər |
|---|---|---|---|---|---|
| **1. Şəhərsalma və ətraf mühitlə bağlı icazələrin alınması sahəsində qaydaların keyfiyyəti** | | | | | |
| **1.1. Tikinti sahəsində qaydaların və ətraf mühitlə bağlı icazələrə dair tənzimləyici norma və qanunvericiliyin təkmilləşdirilməsi** | | | | | |
| 1.1.1. | Tikintiyə nəzarət, tikintidə təhlükəsizlik standartları ilə bağlı aydın müddəalar və ya təlimatların mövcudluğu | 1. Sağlamlığa təhlükə yaradan tikinti materiallarının siyahısı, onlardan istifadənin məhdudlaşdırılması və ya qadağan edilməsi, habelə tikintiyə nəzarət prosesində yoxlanılması üzrə müddəaların qanunvericiliyə daxil edilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi<br>2. Beynəlxalq təcrübə nəzərə alınmaqla tikintiyə dövlət nəzarəti mexanizminə özəl şirkətlərin cəlb olunması imkanlarının araşdırılması, habelə tikintiyə nəzarət, o cümlədən istismara hazırlıq yoxlaması ilə bağlı məsuliyyət səviyyəsinin müəyyən edilməsinə dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi<br>3. Mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla qanunsuz tikintilərin qarşısının alınması sahəsində qanunvericiliyin (o cümlədən nəzərdə tutulmuş məsuliyyət tədbirlərinin) təhlil edilməsi və nəticələri üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi<br>4. Tikinti obyektinin istismarı zamanı yükdaşıyan konstruksiyalarda yaranan problemlərə görə tərəflərin məsuliyyət səviyyəsinin müəyyən edilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.10.2024 | Fövqəladə Hallar Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Elbəy Bababəyov, Sümbül Turabova, Çağrı Kərimzadə |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 5. “Tikinti layihələrinin ekspertizadan keçirilməsi Qaydaları”nın nəzərdən keçirilməsi, ehtiyac olduğu təqdirdə bu Qaydaların təkmilləşdirilməsi və sözügedən layihələrin ekspertiza xərclərinin hesablanma qaydası ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.10.2024 | Fövqəladə Hallar Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Elbəy Bababəyov, Sümbül Turabova, Çağrı Kərimzadə |
| 1.1.2. | Layihələrin enerji səmərəliliyi standartlarına uyğunluğu, minimum enerji səmərəliliyi standartlarına dair tələbin və yaşıl tikinti standartlarının təşviqi üçün stimulların mövcudluğu | 1. Tikinti layihələrinin enerji səmərəliliyi standartlarına uyğunluğuna dair ilkin tələblərlə bağlı mövcud qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Energetika Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, İqtisadiyyat Nazirliyi | Ağamirzə Canmirzəyev, Sahil Şükürlü, Sümbül Turabova, Çağrı Kərimzadə, Əli Salmanlı, Elbəy Bababəyov |
| | | 2. Tikinti layihələrinin ekspertizası zamanı onların enerji səmərəliliyi tələbləri baxımından yoxlanılması vəziyyətinin araşdırılması və nəticələri üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | | | |
| | | 3. Yaşıl tikinti norma və standartlarının tətbiqinin təşviq edilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | | | |
| 1.1.3. | Tikinti fəaliyyəti və tikinti layihələrinin ekoloji ekspertizası üzrə mübahisələrin həlli mexanizmlərinin, eləcə də müvafiq peşələrdə iştirak üçün gender təşviqlərinin mövcudluğu | 1. Tikinti fəaliyyəti və tikinti layihələrinin ətraf mühitə təsirinə dair sənədlərin hazırlanması (o cümlədən sözügedən sənədlərlə bağlı müvafiq ekspertiza rəylərinin alınması) ilə əlaqəli sahələrdə gender əsaslı peşəkar fəaliyyəti təşviq edən güzəşt və mexanizmlərin araşdırılması və mövcud qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.09.2024 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi), Fövqəladə Hallar Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Seymur Məmmədov, Sevinc Məmmədova, Emil Hüseynli, Elbəy Bababəyov, Sümbül Turabova |
| | | 2. Tikinti fəaliyyətinin ətraf mühitin mühafizəsi tələblərinə uyğun həyata keçirilməsi ilə əlaqədar qaydaların, həmçinin bu sahədə ekoloji tələblərin pozulmasına görə cəza və cərimələrin tətbiqi mexanizminin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi | Mübariz Əliyev, Sümbül Turabova, Çağrı Kərimzadə, Kamran Xanlarov, Elbəy Bababəyov |
| | | 3. Müvafiq sahədə ətraf mühitə təsirin qiymətləndirilməsi ilə bağlı peşəkar fəaliyyətə dair qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | | | |
| | | 4. Müvafiq sahədə ətraf mühitə təsirin qiymətləndirilməsi üçün tələb olunan meyarlar və bu prosesin icrasına dair tələblərin qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təhlil edilməsi və nəticələri üzrə təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | | | |
| | | 5. Maraqlı tərəflərlə ictimai dinləmələr və müzakirələrin aparılması ilə bağlı tələblərin və hüquqi çərçivənin müəyyənləşdirilməsi istiqamətində təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 6. Tikintiyə icazənin verilməsi və ətraf mühitlə bağlı icazənin alınmasına dair qərarlardan şikayət verilməsi və həll mexanizmlərinin araşdırılması, nəticələri üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim olunması | 01.09.2024 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi,<br>Dövlət Şəhərsalma və Arxitektura Komitəsi,<br>Fövqəladə Hallar Nazirliyi | Mübariz Əliyev,<br>Sümbül Turabova,<br>Çağrı Kərimzadə,<br>Kamran Xanlarov,<br>Elbəy Bababəyov |
| **2. Tikintiyə icazələrin verilməsi sahəsində dövlət xidmətlərinin keyfiyyəti və məlumatların şəffaflığı** | | | | | |
| **2.1. Onlayn dövlət xidmətlərinin mövcudluğu və etibarlılığı** | | | | | |
| 2.1.1. | Müvafiq sahədə onlayn dövlət xidmətlərinin mövcudluğu və etibarlılığı, verilmiş icazələrin sayını əks etdirən rəsmi, yenilənmiş və ictimaiyyətə açıq onlayn statistikanın mövcudluğu | 1. Elektron Tikinti Portalında (e-tikinti.gov.az) yerləşdirilən statistik məlumatların tərkibinin genişləndirilməsi (son 5 ili əhatə etməsi, ölkə və regionlar üzrə yekunu izləmə imkanının yaradılması, icazə və müraciətlərin statistikasının fərqləndirilməsi) | 01.10.2024 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi,<br>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi<br>(İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi) | Məmməd Əli Məmmədov,<br>Kamran Xanlarov,<br>Rəşad Xalıqov |
| | | 2. Elektron Tikinti Portalında sifarişçi tərəfindən tikintinin icazə verilən parametrlərinin öyrənilməsi imkanının yaradılması məqsədilə texniki tapşırığın hazırlanması | | | Məmməd Əli Məmmədov,<br>Rəşad Xalıqov |
| | | 3. Elektron Tikinti Portalında torpaqayırma modulunun yaradılması üzrə texniki tapşırığın hazırlanması və müvafiq modulun yaradılması | 01.09.2024<br>(texniki tapşırığın hazırlanması)<br><br>01.12.2024<br>(modulun yaradılması) | | Məmməd Əli Məmmədov,<br>Xalid Xuduzadə,<br>Rəşad Xalıqov |
| 2.1.2. | Tikinti icazələri üzrə qarşılıqlı fəaliyyətin mövcudluğu | 1. Binaların informasiya modelləşdirilməsinə (Building information modeling) keçid məqsədilə tədbirlərin davam etdirilməsi | İl ərzində<br>(sonrakı dövrdə icra davam etdirilməklə) | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi,<br>tikinti icraatında iştirak edən digər qurumlar | Gülşən Rzayeva,<br>işçi qrupun aidiyyəti üzvləri |
| | | 2. Tikinti sahəsində peşəkarlıq reyestrinin yaradılması, şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminə inteqrasiyası üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | | Fövqəladə Hallar Nazirliyi,<br>İqtisadiyyat Nazirliyi,<br>Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Elbəy Bababəyov,<br>Ağamirzə Canmirzəyev,<br>Məmməd Əli Məmmədov |
| | | 3. Milli Məkan İnformasiya Sisteminin formalaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi, aidiyyəti qurumlar və inzibati-ərazi vahidləri üzrə Coğrafi İnformasiya Sistemlərinin yaradılması və Milli Məkan İnformasiya Sisteminə inteqrasiyasının təmin edilməsi | | İqtisadiyyat Nazirliyi,<br>tikinti icraatında iştirak edən aidiyyəti qurumlar | Anar Nərimanov,<br>işçi qrupun aidiyyəti üzvləri |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 4. Elektron Tikinti Portalının funksional işləkliyinin və digər qurumlarla inteqrasiyasının tam təmin olunması | 01.09.2024 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, tikinti icraatında iştirak edən digər qurumlar | Məmməd Əli Məmmədov, Kamran Xanlarov, Rəşad Xalıqov, işçi qrupun digər üzvləri |
| | | 5. Tikintiyə və istismara icazələrin verilməsi sahəsində tətbiq edilən elektron sistemin imkanları ilə bağlı ictimaiyyətin davamlı olaraq məlumatlandırılması, habelə müvafiq rüblük statistik məlumatların (Bakı şəhəri üzrə) aidiyyəti qurumun internet resurslarında yayımlanması | Hər rüb | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Ramiz Həsənov, Səma Kərimli, Kamran Xanlarov |
| **3. Tikinti və istismar ilə bağlı icazələrin əldə olunmasının səmərəliliyi** | | | | | |
| 3.1. | Tikinti məqsədləri üçün ətraf mühitlə bağlı icazələrin əldə edilməsinin səmərəliliyi | Tikinti məqsədləri üçün ətraf mühitlə bağlı icazələrin əldə edilməsinə tələb olunan vaxt və xərclərin hesablanması və müvafiq məlumatın ictimaiyyət üçün əlçatanlığının təmin olunması | 01.10.2024 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Mübariz Əliyev |
| 3.2. | Tikintiyə və istismara icazələrin alınmasının səmərəliliyi | 1. Metodologiyanın tələbləri nəzərə alınmaqla tikintiyə və istismara icazələrin alınması üçün tələb olunan vaxt və xərclərlə bağlı mövcud vəziyyətin araşdırılaraq onların optimallaşdırılması imkanlarına baxılması və nəticələri üzrə müvafiq sahədə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.09.2024 (mövcud vəziyyətin araşdırılması)<br>01.10.2024 (təkliflərin təqdim edilməsi) | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, tikintiyə icazə icraatında iştirak edən digər qurumlar | Günel Məlikova, Sümbül Turabova, Kamran Xanlarov, işçi qrupun digər üzvləri |
| | | 2. Tikintiyə və istismara icazə prosesində müvafiq qurumlar tərəfindən rəy və texniki şərtlərin verilməsi prosesinin qanunvericiliklə nəzərdə tutulmuş müddətlərdə icrasının təmin edilməsinin nəzarətdə saxlanılması və sözügedən rəy və texniki şərtlərin verilməsi ilə bağlı rüblük məlumatların hazırlanaraq işçi qrupun iclaslarında müzakirə edilməsi | Mütəmadi (icranın təmin edilməsinin nəzarətdə saxlanılması)<br>Hər rübdən sonrakı 20 gün ərzində (müzakirənin aparılması) | | |

| 4. Maarifləndirmə və təbliğat işlərinin aparılması | | | | | |
|---|---|---|---|---|---|
| 4.1. | Tikinti icraatında iştirak edən qurumların, təşkilat və mütəxəssislərin, habelə vətəndaşların və sahibkar-ların maarifləndirilməsi, onların məmnunluğunun təmin edilməsi və bu sahədə təbliğat işlərinin aparılması | 1. Regionlarda yerli icra hakimiyyəti orqanları üçün Elektron Tikinti Portalından (e-tikinti.gov.az) istifadəyə dair məlumatlandırıcı tədbirlərin keçirilməsi | Hər ay | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, yerli icra hakimiyyəti orqanları | Kamran Xanlarov, Günel Məlikova, Məmməd Əli Məmmədov |
| | | 2. Tikintiyə və istismara icazələrin verilməsi sahəsində aparılmış islahatlarla bağlı məlumatlılıq səviyyəsinin artırılması məqsədilə yerli icra hakimiyyəti orqanlarının nümayəndələri, layihəçilər, tikinti şirkətləri və tikinti sahəsində çalışan ekspertlərlə tematik görüşlərin keçirilməsi | | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, tikintiyə icazə icraatında iştirak edən digər qurumlar | Elnaz Sultanova, Günel Məlikova, Zenfira Rzayeva, Mübariz Əliyev, Natiq Quliyev, Elsevər Rüstəmli, Mikayıl Cəbrayılov |
| | | 3. Tikinti fəaliyyəti ilə əlaqəli aparıcı konsaltinq şirkətləri və biznes assosiasiyaları ilə bu sahədə aparılan islahatlara dair məlumatlılıq səviyyəsinin artırılması məqsədilə görüşlərin keçirilməsi və müzakirələrin aparılması | | | |
| | | 4. Elektron Tikinti Portalından istifadəyə dair təlimatlandırıcı video-çarxların hazırlanaraq yayımlanması | 01.10.2024 (video-çarxların hazırlanması)<br>Mütəmadi (yayımlanması) | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Ramiz Həsənov, Kamilla Mahmudbəyova |